DOI: https://doi.org/10.36719/2663-4619/118/64-68

**Asəf Hüseynov**
Azərbaycan Respublikası DİN-in Polis Akademiyası
UOT KOD: 343.13
https://orcid.org/0009-0005-9525-1447
huseynovasef504@gmail.com

# Cinayət-Prosessual Məcəllənin 28-ci maddəsinin təkmilləşdirilməsinə dair

## Xülasə

Bildiyimiz kimi, Azərbaycan Respublikası CPM-in 28-ci maddəsi "Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi" adlanır. Sözügedən normativ-hüquqi aktın 7.0.8 -ci maddəsinə müvafiq olaraq cinayət mühakimə icraatı dedikdə, AR CPM ilə nəzərdə tutulmuş qaydada məhkəməyədək, habelə birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində aparılan icraat başa düşülür. Buna baxmayaraq 28-ci maddənin normaları yalnız hakim və məhkəmə anlayışlarından istifadə edərək cinayət mühakimə icraatının digər iştirakçılarının – prokuror, müstəntiq, təhqiqatçı və s. obyektiv, qərəzsiz və ədalətlilik prinsiplərini öz fəaliyyətlərinə tətbiq etməsinə ciddi normativ maneə törədir. Bu səbəbdən müvafiq maddədəki "məhkəmə" və "hakim" anlayışlarının cinayət mühakimə icraatının iştirakçıları ( prokuror, müstəntiq və hakim) anlayışı ilə əvəz olunmasını məqsədə müvafiq hesab edirəm.

***Açar sözlər:*** *obyektivlik, qərəzsizlik, ədalətlilik, ictimai iddia*

**Asaf Huseynov**
Police Academy of the Ministry of Internal Affairs of the Republic of Azerbaijan
UOT CODE: 343.13
https://orcid.org/0009-0005-9525-1447
huseynovasef504@gmail.com

# On the improvement of Article 28 of the Criminal Procedure Code

## Abstract

As is known, Article 28 of the Criminal Procedure Code of the Republic of Azerbaijan is entitled "Objectivity, Impartiality and Fairness of Criminal Proceedings." According to Article 7.0.8 of this normative legal act, criminal proceedings include pre-trial proceedings as well as proceedings conducted in the courts of first instance, appellate, and cassation instances, as prescribed by the Criminal Procedure Code of the Republic of Azerbaijan. However, the provisions of Article 28 refer exclusively to the terms "court" and "judge," which creates a normative barrier to applying the principles of objectivity, impartiality and fairness to other participants in criminal proceedings — such as the prosecutor, investigator and inquiry officer. Therefore, I consider it appropriate to replace the terms "court" and "judge" in the relevant article with a broader term — participants in criminal proceedings (including the prosecutor, investigator and judge), in order to ensure a more comprehensive application of the principles of a fair trial.

***Keywords:*** *objectivity, impartiality, fairness, public claim*

## Giriş

Azərbaycan Respublikasında cinayət mühakimə icraatının həyata keçirilməsində obyektivlik, qərəzsizlik və ədalət prinsipləri əsas hüquqi və etik təməl kimi çıxış edir. Bu prinsiplərin təmin olunmadığı mühitdə cinayət mühakiməsinin məqsədlərinə nail olunması faktiki olaraq mümkünsüzləşir.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

Prokurorlar müvafiq funksiyaları yerinə yetirərkən, xüsusilə cinayət işlərinin ibtidai araşdırılması mərhələsində qanunçuluğun təmin olunmasına çalışırlar. Lakin qəbul edilən tədbirlərə baxmayaraq, ilkin istintaq və təhqiqat orqanlarının fəaliyyətində qanun pozuntuları halları hələ də müşahidə olunmaqdadır (Əliyev, 2015). Bəzən qanun pozuntularının əsas səbəblərindən biri də məhz qanunvericilikdə olan boşluqların adı ilə bağlıdır. Bu məqalənin təhlili zamanı prokurorun fəaliyyətinə təsir edə biləcək bir sıra nəzəri və təcrübi problemlər araşdırılmış və müvafiq problemlərin həlli yolları təklif olunmuşdur. Mövzunun təhlilinə keçməzdən əvvəl obyektivlik, qərəzsizlik və ədalət prinsipləri anlayışlarına nəzər salaq (Əliyev, 2015):

**Obyektivlik.** "Obyektivlik" anlayışı (lat. *objectum* — "obyekt", "qavranılan şey") — hadisə və obyektlərin reallığa uyğun, subyektiv təsirlərdən uzaq formada dərk edilməsi və qiymətləndirilməsini nəzərdə tutur. Bu prinsip, şəxsi hisslərə, maraqlara və fərdi düşüncələrə əsaslanmadan, faktlara neytral yanaşmanı tələb edir.

Fəlsəfi baxımdan obyektivlik reallığın insan şüurundan asılı olmayaraq mövcudluğunu və bu reallığın insan tərəfindən doğru şəkildə qavranıla biləcəyini ifadə edir. Realist yanaşmaya görə obyektiv biliklər şəxsi təcrübələrə deyil, xarici reallığın faktlarına əsaslanır.

Hüquq sistemində obyektivliyin pozulması təkcə hüquqi qərarların qeyri-dəqiqliyinə yox, həm də bütövlükdə ictimai ədalətə və hüquq sisteminə inamın azalmasına səbəb olur. Hüquq sahəsində obyektivlik — istintaq və məhkəmə orqanlarının şəxsi meyillərdən uzaq, yalnız qanun və sübutlar əsasında qərar qəbul etmələri ilə əlaqələndirilir (Hacıyev, 2019).

Bu baxımdan, Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsi "Ədalətli məhkəmə araşdırması hüququ"nu təsbit edərək hər bir şəxsin işinə müstəqil və obyektiv məhkəmə tərəfindən baxılmasını təmin edir. Əgər məhkəmə tərəflərdən birinə üstünlük verirsə və ya kənar təsirlərə məruz qalırsa, bu, ciddi hüquq pozuntusu kimi qiymətləndirilir (Avropa İnsan Hüquqları Konvensiyası, 1950).

Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsi də hüquq mühakiməsinin obyektiv aparılmasını dövlətlər qarşısında bir öhdəlik kimi müəyyən edir və bu sahədəki pozuntuların diqqətlə araşdırılmasını tövsiyə edir (Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komitəsinin tövsiyələri və qətnamələri (müxtəlif illər).

Avropa İnsan Hüquqları Məhkəməsinin bir sıra qərarlarında obyektivlik prinsipinin pozulması halları ilə bağlı dövlətlər məsuliyyətə cəlb olunmuşdur. Məsələn, "Piersack Belçikaya qarşı" (1982) işində AİHM qeyd etmişdir ki, bir şəxsin əvvəllər prokuror kimi iştirak etdiyi işə daha sonra hakim qismində baxması obyektivlik prinsipinin pozulmasıdır Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları – *Piersack v. Belgium,* 1982).

Ümumiləşdirmə aparsaq, obyektivlik prinsipi hüquq sistemində aşağıdakı funksiyaları yerinə yetirir:

- Ədalətin reallaşdırılmasını təmin edir;
- Hüquq sisteminə ictimai inamı gücləndirir;
- İnsan hüquqlarının müdafiəsinə xidmət edir;
- Hüquqi qərarların legitimliyini artırır.

Əgər qərar obyektiv əsaslarla qəbul edilməzsə, aşağıdakı nəticələr qaçınılmaz ola bilər:

- Hüquq mühakiməsinin ədalətliliyi şübhə altına düşür;
- Hüquq sisteminə ictimai etimad zəifləyir;
- İnsan hüquqları pozulur;
- Hüquqi sistemdə özbaşınalıq və anarxiya meyilləri güclənir.

**Qərəzsizlik.** Qərəzsizlik prinsipi hüquqi dövlətdə və ədalət sistemində əsas dəyərlərdən biridir. Bu prinsip hüquqi münasibətlərin bütün iştirakçılarına bərabər yanaşma və obyektiv qərar qəbulunu təmin etməyə xidmət edir. Qərəzsizlik yalnız məhkəmələr üçün deyil, həmçinin hüquq-mühafizə, inzibati icraat və normativ hüquq yaradıcılığı sahələri üçün də keçərlidir.

Qərəzsizlik — hüquq tətbiq edən şəxslərin şəxsi maraq və emosiyalardan, mövcud stereotiplərdən və xarici təzyiqlərdən azad şəkildə fəaliyyət göstərməsini tələb edir. Hüquq nəzəriyyəsində bu prinsip

ədalətə ictimai inam kontekstində təhlil olunur və bu sahədə Ronald Dvorkin, Lon Fuller kimi nəzəriyyəçilərin fikirləri önəmlidir.

**Azərbaycan Respublikası qanunvericiliyində qərəzsizlik prinsipi.** Azərbaycan Respublikası ərazisində ən ali hüquqi qüvvəyə malik olan Azərbaycan Respublikası Konstitusiyasında sözügedən-qərəz termini iki dəfə - Konstitusiyanın 61 və 127-ci maddələrində öz hüquqi əksini tapmışdır.

*Maddə60.* ***Hüquq və azadlıqların inzibati və məhkəmə təminatı***

*II. Hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın.[1]*

*Maddə 127. Hakimlərin müstəqilliyi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri*

*II. Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar* (Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, 2000-ci il)

Azərbaycan Respublikası qanunvericiliyində qərəzsizlik prinsipinə dair müddəaların zəngin olduğu əsas normativ hüquqi aktlardan biri Azərbaycan Respublikası Cinayət-prosessual və Mülki - prosessual Məcəlləsidir. Cinayət-prosessual Məcəllənin müddəaları barədə birinci fəslin müvafiq paraqrafının sonunda məlumat verəcəyik. İndi isə Mülki-prosessual Məcəlləyə qısaca nəzər salaq. Belə ki, Mülki-prosessual Məcəllənin 8-ci maddəsi qərəzsizlik prinsipinə qısaca və dəqiq aşağıdakı kimi aydınlıq gətirir:

***Maddə 8. Qanun və məhkəmə qarşısında bərabərlik***

*8.1. Mülki işlər və kommersiya mübahisələri üzrə ədalət mühakiməsi hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilir.*

*8.2. Məhkəmə irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən, hüquqi şəxsin olduğu yerdən, tabeliyindən, mülkiyyət formasından və qanunda nəzərdə tutulmayan başqa fərqlərdən asılı olmayaraq işdə iştirak edən bütün şəxslərə eyni cür yanaşır* (Əliyev, 2015).

Bu maddələr ədalətli məhkəmə araşdırması hüququnu qorumaqla yanaşı, qərəzsizliyin konstitusion təminatına da zəmanət verir.

❖ **Qərəzsizlik prinsipinin təmin olunmasında hüquqi və praktiki problemlər.** Qərəzsizlik prinsipinin tam tətbiqinə mane olan bir sıra problemlər mövcuddur:

• Siyasi təsirlər və ictimai təzyiqlər – Yüksək rezonanslı işlərdə məhkəmələrin qərarları bəzən ictimai və ya inzibati təsirlə formalaşa bilər.

• Şəxsi münasibətlərin təsiri – Kiçik rayonalarda hakimlərin tərəflərlə tanışlıq və şəxsi əlaqələri qərəz riskini artırır.

• Etimad problemi – Qərəzsizlik görünmədikdə vətəndaşlar hüquq sisteminə etimadını itirir.

Qərəzsizlik prinsipi hüquqi ədalətin əsas dayaq sütunudur. Bu prinsipin qorunması yalnız normativ aktlarla deyil, həm də praktiki mexanizmlərlə dəstəklənməlidir. Azərbaycanda qərəzsizliyin təmin olunması istiqamətində mühüm addımlar atılsa da, təkmilləşmə zərurəti qalır. Bu baxımdan:

• Prokuror müstəqilliyini daha effektiv təmin edən sistemlər qurulmalı,

• Hakimlərə və prokurorlara etik və peşə təlimləri gücləndirilməli,

• İctimai nəzarət və şəffaflıq artırılmalıdır.

Yalnız bu yolla hüquqi dövlət anlayışı praktikada tam reallaşa və ictimai etimad bərpa oluna bilər (Hacıyev, 2019).

**Ədalət.** Ədalət hüquq sisteminin əsas və ali məqsədlərindən biri olmaqla, hüququn həm mənəvi, həm də normativ əsasını təşkil edir. Hüquqi sistemlərin əsas funksiyalarından biri yalnız hüquqi münasibətləri nizamlamaq deyil, eyni zamanda bu münasibətlərdə ədalət meyarını təmin etməkdir. Hüquqi norma yaradıcılığı, normativ aktların tətbiqi və məhkəmə qərarlarının əsaslandırılmasında ədalət prinsipi xüsusi yer tutur.

*Ədalət anlayışının fəlsəfi əsasları.* Ədalət anlayışı əsrlər boyu müxtəlif fəlsəfi məktəblər tərəfindən fərqli şəkildə izah olunub:

Antik fəlsəfə. Platon və Aristotel kimi klassik filosoflar ədaləti cəmiyyətin sabitliyinin və harmoniyasının təməli kimi təqdim edirdilər. Platon ədaləti ictimai təbəqələr arasında ahəng və

tarazlığın qorunması kimi görürdü (Platon, 2008). Aristotel isə ədaləti "bənzərlərə bənzər münasibət" prinsipi ilə izah edir və onu iki əsas formaya ayırırdı: paylayıcı (distributive) ədalət və mübadilə (kommutativ) ədalət (Aristotel, 2005).

*Müasir hüquq nəzəriyyələri.* John Rawls "Ədalət nəzəriyyəsi" (1971) adlı əsərində ədaləti cəmiyyətin strukturunda "bərabər azadlıqlar" və "ədalətli imkanlar" prinsipi əsasında izah edir. Onun fikrincə, bərabərlik anlayışı ədalət meyarı ilə uyğunlaşdırılmalıdır (Rawls, 1971). Robert Nozick isə liberal fərdiyyətçi yanaşmanı müdafiə edərək, dövlətin rolu minimuma endirilməli və fərdi azadlıqlar, xüsusilə mülkiyyət hüququ əsas götürülməlidir deyə vurğulamışdır. Beləliklə, ədalət həm paylayıcı (distributive), həm də kommutativ (qarşılıqlı) münasibətlərdə əsas meyardır (Nozick, 1974).

Ədalət hüququn mənəvi əsasını təşkil edir. Hüquqi norma yalnız qanuni deyil, ədalətli olduqda cəmiyyət tərəfindən qəbul olunur. Hüquqi pozitivizm ədaləti hüquqdan ayırmağa çalışsa da, müasir dövrdə bu yanaşma tənqid olunur. Çünki qanunlar ədalət hissini əks etdirmədikdə, hüquqa inam sarsılır.

Ədalət hüququn təkcə forması deyil, onun məzmununu da müəyyən edən təməl dəyərdir. Hüquqi norma yalnız qanuni deyil, eyni zamanda ədalətli olarsa, cəmiyyət tərəfindən qəbul edilir və tətbiqi legitim hesab olunur. Hüquqi pozitivizm ədaləti hüquqdan ayırmağa meylli olsa da, müasir hüquq nəzəriyyələri bu yanaşmanı tənqid edərək, hüququn məhz ədalət meyarları ilə ölçülməli olduğunu vurğulayır. Ədalətdən uzaq qanunların cəmiyyətdə hüquqa olan inamı zəiflətdiyi reallıqdır.

Ədalət – fərdlərin hüquq, məsuliyyət, əmək, cəza və mükafatlandırılma kimi hüquqi münasibətlərdəki mövqeləri ilə onların faktiki töhfələri arasında tarazlığın qorunması prinsipidir. Əgər bu uyğunluq pozularsa, nəticədə ədalətsizlik yaranır. Ədalət, həmçinin şəxsin, cəmiyyətin və dövlətin maraqları arasında balans yaratmaqla hüquqi münasibətlərdə tərəflərin bərabər hüquq və azadlıqlarını təmin edir.

## Nəticə

Belə ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 28-ci maddəsi **Cinayət mühakimə İCRAATININ obyektivliyi, qərəzsizliyi və ədalətliliyi prinsiplərini** özündə təsbit edir. Sözügedən maddəyə müvafiq olaraq aşağıdakılar öz hüquqi əsasını cinayət-prosessual qanunvericilikdə tapmışdır:

**Maddə 28. Cinayət mühakimə icraatının obyektivliyi, qərəzsizliyi və ədalətliliyi**

*28.1. Məhkəmələr cinayət işlərinə və cinayət təqibi ilə bağlı digər materiallara məhkəmə iclaslarında yalnız bu Məcəlləyə müvafiq surətdə müəyyən edilmiş hüquqi prosedurlara uyğun faktlar əsasında, qərəzsiz və ədalətlə baxmalıdırlar.*

*28.2. Hakimlər cinayət mühakimə icraatını həyata keçirərkən qanunun mənafeyindən başqa hər hansı bir mənafeyi ifadə edə bilməzlər.*

*28.3. Hakim şəxsən cinayət prosesinin nəticəsi ilə birbaşa, yaxud dolayı yolla maraqlıdırsa, cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə ədalət mühakiməsinin həyata keçirilməsində iştirak edə bilməz.*

*28.4. Cinayət mühakimə icraatını həyata keçirərkən məhkəmələr aşağıdakı vəzifələri yerinə yetirməlidirlər:*

*28.4.1. cinayət prosesində tərəflərə cinayət təqibi ilə əlaqədar bütün halların hərtərəfli, tam və obyektiv tədqiq edilməsi üçün zəruri şəraiti təmin etmək;*

*28.4.2. şübhəli və ya təqsirləndirilən şəxsi həm ifşa edən, həm də ona bəraət verən halları, habelə məsuliyyəti yüngülləşdirən və ağırlaşdıran halları nəzərə almaq;*

*28.4.3. şübhəli və ya təqsirləndirilən şəxsin təqsirsizliyi, yaxud az təqsirliliyi barədə, habelə ona bəraət verən və ya məsuliyyətini yüngülləşdirən hallar üzrə sübutların olması barədə özü, yaxud müdafiəçisi tərəfindən irəli sürülən ərizə və vəsatətlərə baxmaq;*

*28.4.4. cinayət prosesi gedişində qanunun pozulması ilə əlaqədar verilən şikayətləri yoxlamaq;*

*28.4.5. cinayət prosesi iştirakçılarının iştirak etmək hüququnu təmin etmək.*

*28.5. Şəxsin cinayət törətməkdə təqsirli olmasına dair məhkəmə qərarı mülahizələrə əsaslana bilməz və işə aid biri digərinə kifayət qədər uyğun gələn mötəbər sübutların məcmusu ilə təsdiq olunmalıdır.*

*28.6. Ədalət mühakiməsinin həyata keçirilməsi qaydalarının ayrı-ayrı işlər və şəxslər üçün, habelə müəyyən şəraitə görə, yaxud hər hansı bir zaman dövründə özbaşınalıqla dəyişdirilməsinə yol verilmir.*

## Ədəbiyyat

1. Aristotel. (2005). *Etika* (Ə. Abbasov, Tərc.). Bakı: Azərbaycan Nəşriyyatı. (Əsər əsli eramızdan əvvəl IV əsrə aiddir).
2. Avropa İnsan Hüquqları Məhkəməsi. (1982). *Piersack v. Belgium*, 8692/79, 1 EHRR 731.
3. Avropa İnsan Hüquqları Məhkəməsi. (1984). *De Cubber v. Belgium*, 9186/80, 7 EHRR 236.
4. Avropa Şurası. (1950). *Avropa İnsan Hüquqları Konvensiyası*, Maddə 6 – Ədalətli məhkəmə araşdırması hüququ.
5. Azərbaycan Respublikası Konstitusiyası. (1995). (Son dəyişikliklərlə). Bakı: Azərbaycan Respublikası Milli Məclisi.
6. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. (2000). Bakı: Azərbaycan Respublikası Milli Məclisi.
7. Birləşmiş Millətlər Təşkilatı İnsan Hüquqları Komitəsi. (müxtəlif illər). *Tövsiyələr və qətnamələr*. https://www.ohchr.org
8. Əliyev, Z. (2015). *Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsi. Cinayət-prosessual hüququnun əsasları*. Bakı: Hüquq Nəşriyyatı.
9. Əliyev, Z. (2015). *Cinayət-prosessual hüququnun əsasları*. Bakı: Hüquq Nəşriyyatı.
10. Hacıyev, F. (2019). *Cinayət mühakimə icraatında obyektivlik və qərəzsizlik prinsipi*. Bakı: Qanun.
11. Nozick, R. (1974). *Anarchy, state, and utopia*. New York, NY: Basic Books.
12. Platon. (2008). *Dövlət* (T. Məmmədov, Tərc.). Bakı: Şərq-Qərb Nəşriyyatı. (Əsər əsli eramızdan əvvəl V əsrə aiddir).
13. Rawls, J. (1971). *A theory of justice*. Cambridge, MA: Harvard University Press.

Daxil oldu: 15.02.2025
Qəbul edildi: 29.04.2025